# HİSS

NATİQ ƏLİYEV

*Onlar qaranlıqda hamıdan yaxşı görürlər.*

Detektiv triller

QANUN NƏŞRİYYATI

Salius Elion şəhərin ən nüfuzlu xəstəxanalarından biridir. Ancaq heç kim bu xəstəxananın altında gizli şəkildə fəaliyyət göstərən orqan şəbəkəsindən xəbərdar deyil.

Görmə əlilli Yannis onun kimi əlilliyi olan insanları şəhər yaxınlığındakı meşəyə qonaqlığa dəvət edir. Qısa müddət sonra bu görüş ölüm mübarizəsinə çevrilir. Dörd kor və onların dörd baxıcısı həyatda qalmaq üçün mübarizə aparır.

Meşədə baş verən cinayətlər təsadüfi deyil. Hadisələr bir-biri ilə əlaqəlidir və izlər yavaş-yavaş xəstəxananın içində gizlənən böyük bir sirrə aparır.

Hər şeyin əvvəlcədən planlaşdırıldığı ortaya çıxanda isə qatili tapmaq üçün artıq gec olur.

**Bu kitabı mənə daim yol göstərən, təcrübəsini və dəstəyini əsirgəməyən hörmətli Pərviz həkimə ithaf edirəm.**

*İnsan orqan transplantasiyası müasir tibbin ən böyük nailiyyətlərindən biri hesab olunur. Amma hər uğurlu əməliyyatın arxasında görünməyən bir reallıq var – uyğun donor tapmaq uğrunda zamanla yarış və həyatla ölüm arasındakı incə sərhəd. Dünyanın bəzi yerlərində bu sərhəd qanunlarla qorunur, bəzilərində isə pul, güc və gizli şəbəkələr tərəfindən idarə olunur. Rəsmi siyahılardan kənarda qalan həyatların taleyi bəzən heç bir tibbi protokola sığmır. Orqan mafiyası isə məhz bu boşluqlardan faydalanır – ehtiyac, ümidsizlik və dərin çarəsizlik.*

## I. FƏSİL

# BƏLKƏ DƏ, QATİL ODUR?

Polis şöbəsində adi bir gün yarım saat əvvəl saxlanılan şəxslə pozulmuşdu. Çünki bu saxlanılma illər əvvəl baş vermiş dəhşətli bir hadisəni yenidən gündəmə gətirmişdi.

Keçmişin hər zaman qaranlıq bir tərəfi olur. Əgər keçmiş bilinməzliklərlə doludursa, insanları daha çox özünə çəkir. İndi isə o illərin qaranlıq tərəfi şöbənin üzərinə çökmüşdü.

Otuz yaşına yaxınlaşan inspektor Corc müşahidə şüşəsindən sorğu otağındakı şəxsə baxır, onun ağlından keçənləri təxmin etməyə çalışırdı. O, birini müşahidə edəndə kəllə sümüyünü görməzdən gələrək, onun daxilində yerləşən bu möcüzəvi orqanda hansı proseslərin baş verdiyini ehtimal etməyi sevirdi.

Bu dəfə isə fərqli idi.

Corc bu məsələyə həmişə olduğundan daha həssas yanaşdığı üçün özünü ilk dəfə bir cinayətkarla üz-üzə gəlmiş kimi hiss edirdi. Çünki baş verənlər ona qardaşını xatırladırdı. İki il əvvəl şəxsiyyətinə heyranlıq duyduğu, uşaqlıqdan bəri özünə kumir hesab etdiyi böyük qardaşını itirmişdi. Bu itki adi itkilərdən deyildi. Çünki Corcdan başqa

heç kim onun qardaşını yaxşı biri kimi xatırlamırdı, hətta onun arxasınca lənətlər oxuyurdu. Qardaşı televizorlarda vəhşi bir məxluq kimi nümayiş edilmişdi. Xəbər başlıqları hələ də onun gözünün önündən silinmirdi:

*"Həyat yoldaşını və yeni doğulmuş uşağını qısqanclıq zəminində amansızca qətlə yetirdi".*

*"Salius Elion xəstəxanasında dəhşət: Cinayətkar küvəzdəki bütün uşaqları qətlə yetirdi".*

Corc kefsiz halda başını aşağı əydi və biləyindəki yumruq şəkilli döyməyə baxdı. Bu döyməni məktəb vaxtlarında qardaşı ilə birlikdə vurdurmuşdu. Eyni döymədən ölən qardaşının biləyində də var idi. O, qardaşının etdiklərini heç cür qəbullana bilmirdi. Yaşadıqlarını aşmaq üçün uzun müddət psixoloji dəstək almışdı. Qardaşının törətdiyi əməllər Corcun işinə də təsir etmişdi. O, vəzifəsinin sonlandırılması üçün xeyli vaxt təzyiq altında qalmışdı. Şans üzünə gülmüşdü ki, rəhbərlikdə onun qabiliyyətinə rəğbət göstərən şəxslər yardım əli uzatmışdı.

Bu gün baş verənlər beyninin bir küncündə gizlənən hisslərin yenidən qabarmasına səbəb oldu. Hadisələr arasındakı oxşarlıq onu narahat etməyə başladı. Çünki qarşısında dayanan bu cani işlədiyi xəstəxanada otuz beş il əvvəl cinayət törətdiyini etiraf etmişdi. Qustav Svensson…

Otuz beş il əvvəl küvəzin oksigen təchizatında yaranan texniki nasazlıq nəticəsində küvəzdəki uşaqlar oksigensiz qalmış, hamısı asfiksiyadan ölmüşdü. O vaxtlar

xəstəxanadakı məsuliyyətsizlik əhali arasında böyük narazılığa səbəb olmuşdu. Ancaq həmişəki kimi cəmiyyətin yaddaşı zəif oldu və hadisə bir müddət sonra unuduldu.

Dünən gecəyə qədər hadisənin məhz bu şəkildə baş verdiyinə inanılırdı. Həmin vaxtlarda xəstəxanın doğum şöbəsində sanitar kimi işləyən Qustavın etirafı isə həqiqəti dəyişdi. Faciənin baş verdiyi gün küvəzin qarşısında dayanan xoşbəxt ailələrə qarşı Qustav daxili qısqanclıq başləmişdi. O, dezinfeksiya üçün istifadə olunan formalini küvəzin kamerasındakı maye ilə dəyişmişdi. Nəticədə bütün körpələr zəhərlənərək tələf olmuşdu.

Həyat yoldaşının dediklərinə görə, Qustav uşaq vaxtlarında epidemik parotitə tutulmuşdu, lazımi müalicə almadığı üçün sonsuzluq keçirmişdi. Hadisə baş verən vaxtı iyirmi yaşlarında və evli idi. Uşaq sahibi olmağı istəməsinə baxmayaraq, bu arzusu mümkün deyildi. Bu da onun ətrafındakı uşaqlı ailələrə qarşı aqressiyasının yaranmasına səbəb olmuşdu. Həyat yoldaşının daim onun qüsurlarını üzünə vurması isə Qustavı psixoloji uçuruma doğru sürükləmişdi.

Hadisə ilk baxışda psixoloji travma fonunda baş verən bir partlayış kimi görünürdü. Ancaq Corc qeyri-ixtiyari olaraq təşvişə düşmüşdü. Necə olmuşdu ki, tibb eksperti uşaqların ölüm səbəbini yaxşı araşdırmamışdı. Corc faciəni yeni öyrənmişdi və otuz beş il baş verənlərin detallarını bilmirdi. Yenə də iki il əvvəl qardaşının törətdiyi iddia edilən əməllərin, otuz beş il əvvəlki küvəz faciəsi ilə müəyyən oxşarlığı Corcu daim düşünməyə vadar edirdi.